yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










2 VƏTƏNDAŞ OLA BİLMƏYƏN BAYRAM

3 MÜBARƏK ÜÇ AYLAR

6 XARİCDƏ TƏHSİL

7 VƏTƏN! TƏHSİL! UĞUR!



HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 MART 2018-Cİ İL

№003 (62)


## GİORGİ KVİRİKAŞVİLİ İLHAM ƏLİYEVLƏ GÖRÜŞÜB



"Gürcüstan və Azərbaycan arasında ticarət dövriyyəsi ilbəil artır və Azərbaycan Gürcüstana investisiya yatıran ölkələr arasında birinci yerdədir". Bunu Azərbaycan prezidenti İlham Əliyev Gürcüstan baş naziri Giorgi Kvirikaşvili ilə təkbətək görüşdə deyib.

İ. Əliyev Gürcüstan hökumət başçısının Azərbaycana səfərinin əhəmiyyətini və ikitərəfli münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini qeyd edib: "Əminəm ki, sizin Azərbaycana səfəriniz iki ölkə arasında münasibətlərin inkişafına töhfə verəcək. Biz müxtəlif sahələrdə uğurla əməkdaşlıq edirik. Şadam ki, ticarət dövriyyəsi artır. Azərbaycan Gürcüstana investisiya yatıran ölkələr arasında birinci yerdədir və 2012-ci ildən bu mövqeyi saxlayır. Bu, sizin ölkədə investisiya mühitinin yaxşı olmasının göstəricisidir. Bu həmçinin bizim əlaqələrin yüksək səviyyədə olduğunu göstərir".

Azərbaycan prezidenti iki ölkənin iştirak etdiyi qlobal əhəmiyyətli layihələrə də toxunub: "Bu layihələrdən biri ötən ilin oktyabrında istifadəyə verilmiş Bakı-Tbilisi-Qars layihəsidir. Cənub Qaz Dəhlizi və TANAP layihələrinin də reallaşması bizim əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaq".

İ. Əliyev bildirib ki, Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq yalnız regional deyil, qlobal səviyyədə də uğurludur: "Bizim əməkdaşlığımız dostluq və qardaşlıq münasibətlərini daha da gücləndirir. Əminəm ki, bu isti münasibətlər gələcəkdə xalqlarımızın rifahına xidmət edəcək".

G. Kvirikaşvili isə iki ölkə arasında iqtisadi münasibətlərin müsbət dinamikasını qeyd edib: "Azərbaycana səfər bizim üçün hər zaman əlamətdardır. Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. Şadıq ki, ölkələr arasında iqtisadi əlaqələr inkişaf edir. Ötən il ikitərəfli ticari-iqtisadi əlaqələrdə əhəmiyyətli artım qeydə alınıb. Azərbaycan Gürcüstanın bir nömrəli investorudur. Sonuncu statistik məlumata əsasən, Azərbaycan birinci yerdədir və bu, sevindirici haldır. Sizin qeyd etdiyiniz Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi strateji layihələrin mühüm iqtisadi və geosiyasi əhəmiyyəti var. Qlobal formatlarda Gürcüstan hər zaman Azərbaycanın mövqeyini dəstəkləyir və bu strateji tərəfdaşlığa əsaslanır".

Gürcüstanın baş naziri Azərbaycan prezidentini birinci respublikanın elan olunmasının 100 illik yubileyi münasibətilə təbrik edib: "Bu tarix Gürcüstan və Azərbaycan üçün əhəmiyyətlidir və ümid edirəm ki, biz bu tarixi layiqincə qeyd edəcəyik".

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 16,3% ARTIB

Cari ilin yanvar-fevral aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi 1 milyard 683,5 milyon dollar təşkil edib.

Gürcüstanın Milli Statistika İdarəsinin ilkin hesabatına əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 16,3% çoxdur.

Hesabat dövründə Gürcüstanın ixracı 25,5% artaraq 446,4 milyon dollar, idxalı isə 13,3% artaraq 1 milyard 237,1 milyon dollar təşkil edib.

Ticarət dövriyyəsinin kəsri 790,7 milyon dollar olub.

## GİORGİ KVİRİKAŞVİLİ RUSİYA RƏHBƏRLİYİNƏ MÜRACİƏT ÜNVANLAYIB

Baş nazir Giorgi Kvirikaşvili Rusiya rəhbərliyinə müraciət ünvanlayıb. Kvirikaşvili müraciətində bu ilin avqustunda 2008-ci il müharibəsinin 10 illiyinin tamam olacağını qeyd edib. Baş nazir bu faciəvi hadisənin gürcü xalqının düşüncəsində, Gürcüstan və Rusiya arasındakı münasibətlərdə dərin iz qoyduğunu bildirib: "Diplomatik əlaqələr kəsilib. Moskva tərəfindən Abxaziya və Tsxinvali bölgələrinin müstəqilliklərinin tanınması normal dövlətlərarası münasibətlərin qurulması ilə bağlı perspektivləri faktiki olaraq dalana dirəyib".

G. Kvirikaşvili müraciətində Rusiya tərəfini münasibətləri tilsimlənmiş dairədən çıxarmaq üçün kiçik də olsa, düşünülmüş addımlar atmağa çağırıb: "Biz abxaz və osetinlərlə birbaşa dialoqa hazırıq. Siyasi iradə olacağı təqdirdə, digər düşünülmüş addımların da atılmasını mümkün hesab edirik".

Baş nazir vurğulayıb ki, Rusiya ilə ticari-iqtisadi münasibətlər bərpa olunsa da, faciəvi hadisələr bu gün də davam edir: "Bu, Gürcüstan-Rusiya münasibətlərinin nizamlanması üzrə perspektivlərə



xələl gətirir. Sonuncu faciəvi nümunə Gürcüstan vətəndaşı Arçil Tatunaşvilinin Tsxinvalidə iki həftə öncə qeyri-müəyyən şəraitdə ölməsidir və onun meyiti Gürcüstan hakimiyyəti, patriarx və beynəlxalq ictimaiyyətin çoxsaylı səylərinə baxmayaraq, hələ də ailəsinə təhvil verilməyib".

G. Kvirikaşvili Rusiya rəhbərliyini bugünkü gün və gələcək nəsillər qarşısında məsuliyyəti dərk edərək çətin vəziyyətin aradan qaldırılması üçün birgə addımlar atmağa çağırıb.

## ƏRDOĞAN NATO-NU SƏRT TƏNQİD EDİB



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyada terror təşkilatlarına qarşı mübarizədə Ankaraya dəstək verməyən NATO-nu sərt tənqid edib.

Sədri olduğu hakim Ədalət və İnkişaf Partiyasının Bolu rayon təşkilatının konfransında çıxış edən R. T. Ərdoğan deyib ki, Türkiyə NATO-nun çağırışına əsasən Əfqanıstan, Balkanlar, Kosova və digər yerlərdə sülhyaratma missiyalarında iştirak edib.

Bu gün NATO üzvü olan Türkiyənin Suriya sərhədi boyu terror təhdidi ilə üzləşdiyini söyləyən R. T. Ərdoğan NATO-nun Türkiyəyə dəstək verməməsini yolverilməz sayıb: "Türkiyə NATO üzvü kimi hər zaman üzərinə düşən vəzifəni yerinə yetirib. NATO nə vaxta qədər Suriyada baş verənlərə biganə qalacaq? NATO sərhədləri Suriya ərazisindən terrorçuların hücumlarına məruz qalan Türkiyəyə nə zaman dəstək verməyi planlaşdırır? Nə vaxta qədər mən belə çağırışlarla çıxış etməliyəm?".



# VƏTƏNDAŞ OLA BİLMƏYƏN BAYRAM

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

***Mart ayı bayram ayı olmasıyla bərabər həm də təbiətin yenilənməsi ilə ovqatımızı istər-istəməz xoş əhval-ruhiyyəyə kökləyir. Ölkəmizdə martın 3-ü Analar günü, martın 8-i Beynəlxalq Qadınlar günü rəsmi tətil günü kimi qeyd olunur. Zərif cinsin nümayəndələri üçün hər iki bayram güllü-çiçəkli keçir. Mart ayında bir bayram da var ki, dünyanın bir çox xalqları kimi azərbaycanlılar da bu bayramı özünəməxsus və təntənəli şəkildə qeyd edirlər. Bu, Novruz bayramıdır ki, ölkəmizdə də çal-çağırla, zurna-nağara ilə, at çapmaqla, yumurta döyüşdürməklə, rəsmi şəxslərin azərbaycanlıların sıx yaşadığı regionlara səfəri ilə mart ayının 21-i qeyd olunur. Amma qeyri-rəsmi olaraq. Niyəsə Novruz bayramı Gürcüstanda rəsmiləşə bilmir ki, bilmir. Novruz bayramı Gürcüstanda yaşayan, amma hələ də vətəndaşlığını təsd.iq edən sənədi olmayan şəxs kimidir. Bu yazıda Novruz bayramının özəlliklərindən və gözəlliklərindən danışan deyiləm. Novruzun nə olduğunu siz məndən də yaxşı bilirsiniz. Bu haqda qəzetimizdə gürcü dilində qısa məlumat verəcəyik ki, gürcü dilli həmvətənlərimiz də məlumatlansınlar. Keçək əsas məsələyə.***

Gürcüstanın Əmək Məcəlləsinin 20-ci maddəsinə əsasən, 1 və 2 yanvar – Yeni il bayramı; 7 yanvar – İsanın təvəllüdü günü; 19 yanvar – İsanın vəftiz edilməsi günü; 3 mart – Analar günü; 8 mart – Beynəlxalq Qadınlar günü; 9 aprel – Gürcüstanın dövtəl müstəqilliyinin bərpası aktının qəbul olunması, Gürcüstanın milli birliyi, Vətəndaş həmrəyliyi və Vətən uğrunda ölənlərin anım günü; Pasxa bayramı (Bu il aprelin 8-dən başlayır və bir həftə davam edir); 9 may – Faşizm üzərində Qələbə günü; 12 may – Müqəddəs həvari Andreyin anım günü; 26 may – Gürcüstanın müstəqillik günü; 28 avqust – Mariamoba; 14 oktyabr – Mtsxetoba; 23 noyabr – Giorqoba rəsmi istirahət günləridir. Yəni bu günlər iş günü deyil və bütün Gürcüstan vətəndaşları, hamı bir nəfər kimi evində-eşiyində olur, bayramını qeyd edir. Onsuz da faciələrlə dolu olan bu dünyada bayramlardan gözəl nə ola bilər. Bir neçə gün də olsa insanlar il boyu yükləndikləri stressdən, yorğunluqdan azad olub dostlarla, qohumlarla görüşərək bayramlaşa bilirlər.

Novruz bayramı da ölkəmizdə dövlət səviyyəsində qeyd edilsə də bayram günü rəsmi istirahət günü sayılmır. Gürcüstanda yaşayan azərbaycanlılar bayram günü işə, məktəbə gedirlər. Halbuki Novruza hazırlıq bir ay əvvəlcədən başlayır. Bayramın ənənələrinə əsasən qadınlar yır-yığış, biş-düş işləri ilə, kişilər alış-verişlə məşğul olurlar. Bayram günü də tətil olmadığı üçün çox adam iş saatı qurtardıqdan sonra yorğun-arğın evinə qayıdır, bayrama hazırlaşır və beləcə də ildə bir dəfə qeyd edəcəyi bayram işə-gücə qarışıb istirahət əvəzinə yorğunluğa çevrilir.

Bir neçə il bundan öncə isə Gürcüstanda martın 21-nin Novruz bayramı münasibəti ilə istirahət günü kimi ümummilli bayram olaraq bütün Gürcüstanda qeyd ediləcəyi haqqında sabiq prezidentin fərman imzalaması xəbərini Gürcüstan azərbaycanlıları yazın gəlişi kimi sevinclə qarşıladılar. Amma nədənsə fərman yarpaqlasa da çiçək açıb, bar vermədi. Elə yarpaqları da payıza kimi qaldı, payızda saralıb, solub töküldü. Beləliklə də Gürcüstanda yaşayan yarım milyona yaxın azərbaycanlı, həmçinin Novruzu qeyd edən minlərlə müsəlman gürcülər (Acarıstan) vəddən başqa heç nə görmədilər, daha doğrusu vəddən başqa heç nə eşitmədilər. Həmin vəddən isə düz 8 il ötür.

***Deyirlər dəliyə hər gün bayramdı, biz hər gün bayram qeyd edib istirahət etmək arzusunda deyilik. Biz sadəcə ildə bircə dəfə qeyd edəcəyimiz bayramda istirahət etmək istəyirik. Gürcüstanda rəsmi tətil günü olmayan bir bayram da var, bu, aprelin 15-i qeyd edilən Sevgi günüdür. Tanrı qəlblərimizi sevgi ilə doldursun. Bütün bayramlarımız sevgi ilə qeyd edilsin. Qarşıdan gələn Novruz bayramı münasibəti ilə bütün Gürcüstan vətəndaşlarını təbrik edir, Novruz bayramına da Gürcüstanın Əmək Məcəlləsinin 20-ci maddəsinin siyahısına düşməyi arzu edirəm.***

# GÜRCÜSTAN VƏ TÜRKİYƏ XİN RƏHBƏRLƏRİ BAKIDA GÖRÜŞÜBLƏR



Gürcüstanın xarici işlər naziri Mixeil Canelidze Bakıya səfəri çərçivəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

Tərəflər Gürcüstan-Türkiyə əməkdaşlığını ikitərəfli və eləcə də regional formatda yüksək dəyərləndiriblər. Bu baxımdan nazirlər ilk görüşü Bakıda keçirilən Azərbaycan-Gürcüstan -İran-Türkiyə əməkdaşlığının dördtərəfli görüşünü alqışlayıblar.

Nazirlər Gürcüstan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti görüşünün məsələlərini də müzakirə ediblər. Görüşdə iki ölkə arasında uğurlu ticari-iqtisadi münasibətlərdən, həmçinin Gürcüstan və Türkiyənin beynəlxalq tranzit layihələrdə iştirakından söhbət açılıb.

Nazirlər NATO çərçivəsində əməkdaşlıq məsələləri və NATO-nun gələcək sammitindən danışıblar. Türkiyə bir daha Gürcüstanın Avroatlantik strukturlara inteqrasiyası məsələsində Ankaranın qəti dəstəyini təsdiq edib. Çavuşoğlu qeyd edib ki, Türkiyə gələcəkdə də Gürcüstanın NATO-ya üzv olmasına dəstək olacaq.

Gürcüstanın xarici işlər naziri Türkiyə tərəfini birinci respublikanın elan olunmasının 100 illik yubileyinə dəvət edib. M. Çavuşoğlu yubiley tarixi münasibəti ilə həmkarı M. Canelidzeni təbrik edib.

# BAKIDA AZƏRBAYCAN, GÜRCÜSTAN, İRAN VƏ TÜRKİYƏ XİN RƏHBƏRLƏRİNİN DÖRDTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLİB



Bakıda Azərbaycan, Gürcüstan, İran və Türkiyənin xarici işlər nazirlərinin dördtərəfli görüşü keçirilib. Dörd ölkənin xarici işlər nazirlərinin rəhbərləri qeyd olunan format çərçivəsində birgə bəyanat imzalayıblar və ölkələr arasında münasibətlərin dərinləşdirilməsi, ümumi regionun inkişafı və stabilliyin təsdiqlənməsi işində dördtərəfli əməkdaşlıq formatının əsasının qoyulmasının əhəmiyyətini diqqətə çatdırıblar.

Gürcüstanın xarici işlər naziri Mixeil Canelidze qeyd olunan formatda təqdim olunan bütün ölkələrlə Gürcüstanın dost və tərəfdaş münasibətlərini xüsusi qeyd edib. Nazir onlara Gürcüstanın süverenliyi və ərazi bütövlüyünü dəstəklədiklərinə görə təşəkkür edib. O, görüşdə nazirlərin imzaladığı sənəddə yer alan, dörd ölkənin də ümumi marağı olan regionda sülh və stabilliyin təmin edilməsinə dəstək məsələsini qeyd edib. Sənəddə eləcə də tərəflərin beynəlxalq şəkildə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyü prinsipinə əsaslanaraq konfliktlərin sülh yolu ilə tənzimlənməsini dəstəklədikləri qeyd olunub.

Görüşdə sektor əməkdaşlığının inkişafı üçün energetika, nəqliyyat, turizm, infrastruktur kimi sahələrdə yeni əsası qoyulmuş formatın geniş imkanları vurğulanıb. Həmçinin tranzit sahəsində dördtərəfli əməkdaşlıq məsələsi xüsusi qeyd olunub. Avropa və Asiyanı əlaqələndirən tranzit dəhlizlərinin inkişafı istiqamətində dörd ölkənin artan potensialı və bu baxımdan əməkdaşlığın əhəmiyyəti müzakirə olunub.

"Biz artıq üçtərəfli formatda əməkdaşlıq edirik, ancaq dördtərəfli formatda daha çox imkanlar var və biz istəyirik ki, bu imkanlardan regionun stabilliyi, inkişafı və xalqlar arasında daha çox ünsiyyətin yaranması üçün istifadə olunsun. Bu gün biz bəyanat imzaladıq. Bu istiqamətdə konkret addımların atılması üçün fəal çalışmağa davam edəcəyik. Nəqliyyat əlaqələrinin inkişafı baxımından böyük potensial görürük. İlk növbədə bu, dörd ölkənin də vacib rol oynayacağı Cənub-Qərb tranzit dəhlizinin inkişafına aiddir", - deyə Gürcüstanın xarici işlər naziri M. Canelidze bildirib.

Tərəflər dördtərəfli formatda sektor əməkdaşlığının fəaliyyət planının işlənilməsinə dair razılığa gəliblər.

# TÜRKİYƏ SƏFİRİ DİNİ MƏSƏLƏLƏR ÜZRƏ AGENTLİYİN RƏHBƏRİ İLƏ GÖRÜŞÜB



Gürcüstan Hökumət Administrasiyasında Dini Məsələlər üzrə Agentliyin rəhbəri Zaza Vaşakmadze ilə Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfiri Fatma Ceren Yazqanın görüşü baş tutub.

Zaza Vaşakmadze Türkiyə səfirini agentliyin fəaliyyəti və yeni layihələri ilə tanış edib. Səfir Fatma Ceren Yazqanın bildirdiyinə görə, o, dini agentliyin fəaliyyəti ilə tanışdır və onların işgüzarlığını müsbət dəyərləndirir.

"Gürcüstanda dini rəngarəngliyə dair böyük adət-ənənə var. Din, iman qorunmağa ehtiyac duyan mozaikaya bənzəyir. Sovet dövrü bu mozaikanı sarsıtdı. Dini agentlik onun bərpasına dəstək olan təşkilatdır. Analoji struktur Türkiyədə 90 ildir ki mövcuddur. Buna baxmayaraq ki, Gürcüstanda agentlik 4 ildir fəaliyyət göstərir, sizin uğurlarınız var və bir çox məsələlərdə Avropa ölkələrini də önə keçmisiniz", – deyə səfir qeyd edib.

Görüşün sonunda Türkiyə səfiri agentliyin heyətini, dini təhsil baxımından təcrübələrini bölüşmək və Türkiyə Cümhuriyyətinin Dini Məsələlər üzrə Departamentinin yeni rəhbərliyi ilə görüşmək məqsədi üçün Türkiyəyə dəvət edib.

## TÜRKİYƏ İRAQIN ŞİMALINDA PKK TERRORÇULARINA QARŞI GENİŞ MİQYASLI ƏMƏLİYYATA BAŞLAYACAQ

Türkiyə Şimali İraqda PKK terror təşkilatına qarşı geniş miqyaslı əməliyyat aparacaq.

Bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

M. Çavuşoğlu bu il mayın 12-də İraqda keçiriləcək parlament seçkilərindən sonra Türkiyənin İraqla birlikdə belə bir əməliyyatı keçirməyi planlaşdırdığını qeyd edib. Türkiyə xarici işlər naziri may ayına qədər Türkiyə ordusunun müxalif Azad Suriya Ordusu ilə birlikdə Suriyanın Afrin bölgəsində PKK terror təşkilatının Suriya qolu PYD/YPG-yə qarşı həyata keçirdiyi "Zeytun budağı" əməliyyatının başa çatacağını bildirib: "Maya qədər Afrində əməliyyat başa çatmasa belə, Türkiyə ordusunun eyni zamanda həm Afrində, həm də Şimali İraqda əməliyyatlar aparmaq imkanı var".

M. Çavuşoğlu İraq hökumətinin də ölkənin PKK terrorçularından təmizlənməsini istədiyini vurğulayıb.

## ƏRDOĞAN: "AFRİN BÖLGƏSİNİN AZAD OLUNMASINDAN SONRA BU ƏRAZİYƏ 200 MİN QAÇQIN QAYIDACAQ"

"Suriyanın Afrin bölgəsinin azad olunmasından sonra bu əraziyə 200 min suriyalı qaçqın qayıdacaq".

Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Dövlət başçısı bildirib ki, Türkiyə Silahlı Qüvvələri və Azad Suriya Ordusu Afrini terrorçulardan mütləq azad edəcəklər.

Qeyd edək ki, bu il yanvarın 20-də Türkiyə ordusu müxalif Azad Suriya Ordusu ilə birgə Suriyanın Afrin bölgəsini PKK terror təşkilatının Suriya qolu PYD/YPG-dən təmizləmək üçün "Zeytun budağı" əməliyyatına başlayıb.

## NAİL ÇƏLƏBİ: "ARTIQ AVROPA BİRLİYİNƏ BƏNZƏR TÜRK BİRLİYİNİN QURULMASI ŞƏRTDİR"

"Türkiyə terrorla və terrora dəstək verən ölkələrə qarşı təkbaşına mübarizə aparır. Sanki bir səlib yürüşü ilə üzləşib. İndi Türk Birliyi zamanıdır. Biz də bunun üçün bütün gücümüzlə çalışacağıq", - deyə Türk Dünyası Parlamentlər Birliyinin (TDPB) sədri Nail Çələbi mətbuat konfransında bildirib.

N. Çələbi türk dünyasının millət vəkilləri, iş adamları, QHT-lər və media nümayəndələrinin vasitəsilə türk dünyasında birlik və bərabərliyi gücləndirməyə çağırıb: "Hədəfimiz türk dünyasını yaradan müstəqil türk dövlətlərinin parlamentləri və millət vəkilləri arasında əməkdaşlığı inkişaf etdirməkdir".

Türkiyə ordusunun Afrindəki əməliyyatda haqlı olduğunu vurğulayan N.Çələbi ölkəsinin təklənilməyə çalışıldığını bildirib.

"Artıq Avropa Birliyinə bənzər Türk Birliyinin qurulması şərtdir. Türk Birliyi olsaydı Türkiyə bu qədər yalnız olmaz, söykənəcək bir dayağı olardı", - deyə TDPB sədri bildirib.

## GÜRCÜSTAN VƏ AZƏRBAYCAN HƏRBİ ƏMƏKDAŞLIQ PLANI İMZALAYIB

Gürcüstanın müdafiə naziri Levan İzoria Azərbaycanda iki günlük rəsmi səfərdə olub. Azərbaycanda L. İzorianı həmkarı general-polkovnik Zakir Həsənov qarşılayıb. Qarşılama mərasimindən və müdafiə naziri ilə şəxsi görüşdən sonra söhbət geniş formatda davam edib. Həmkarlar 2018-ci ildə müdafiə nazirlikləri arasında ikitərəfli hərbi əməkdaşlığın davamına dair plan imzalayıblar.

Görüş zamanı müdafiə nazirləri silahlar üzərində yoxlama və nəzarət sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər. Tərəflər həmçinin hərbi, hərbi-texniki, hərbi-tədris, hərbi-tibbi sahələrdə əməkdaşlıq perspektivləri haqda, müştərək hərbi təlimlərin keçirilməsi, işgüzar görüşlərin təşkili və sair ümumi maraq kəsb edən məsələlərlə bağlı da fikir mübadiləsi aparıblar.

İzoria Azərbaycana növbəti səfərinin yekunlarından məmnunluq ifadə edib. O qeyd edib ki, Bakı və Tbilisi arasında əməkdaşlıq iki ölkə arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsidir.

Azərbaycanın müdafiə naziri Z. Həsənov Azərbaycanı beynəlxalq təşkilatlarda dəstəklədiyinə və Azərbaycanın ərazi bütövlüyünü tanıdığına görə gürcü xalqına minnətdarlığını bildirib. O vurğulayıb ki, "Azərbaycan da Gürcüstanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir".

Z. Həsənov Azərbaycan və Gürcüstan arasında hərbi əməkdaşlığın həm ikitərəfli əsasda, həm də NATO çərçivəsində, o cümlədən də Azərbaycan-Türkiyə-Gürcüstan hərbi strukturlarının əməkdaşlıq formatında genişlənməsinin vacibliyini də qeyd edib.

Səfər çərçivəsində Gürcüstanın müdafiə naziri Levan İzoria Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, baş nazir Artur Rəsizadə və xarici işlər naziri Elmar Məmmədyarovla da görüşüb.

## MÜBARƏK ÜÇ AYLAR



Hacı Bəkiroğlu
*hacibakir@mail.ru*

***Dini ədəbiyyatımızda "üç aylar" deyə bilinən çox feyzli və bərəkətli bir mənəviyyat mövsümünə bir dəfə daha yaxınlaşdıq. 19 Mart 2018-ci il Bazar ertəsi üç ayların ilki olan Rəcəb ayının birinci günüdür. 23 Mart Cümə axşamı da bu ayın ilk Cümə gecəsi olub, bu səbəbdən Rəğaib qəndili günüdür.***

Üç aylar Qəməri təqvimdə yer alan Rəcəb, Şaban və Ramazan aylarıdır. Bu aylar rəhmət dalğalarının başladığı, hüzurun və sakitliyin ürəklərə doğulduğu, ilahi rəhmətin coşduğu aylardır. Bu aylar girincə hər yanı mənəvi bir hava örtər. Bu mübarək aylar içərisində elə feyzli və bərəkətli gecələr vardır ki, Uca Allahın rəhməti bu gecələrdə möminlər üzərinə yağış kimi yağar.

Üç aylardan hər biri sevimli Peyğəmbərimizin mübarək diliylə təriflənmiş və çox şərəfli günləri, gecələri, qəndilləri içərisində daşıyan mənəviyyat karvanlarıdır. Rəcəb ayının ilk Cümə gecəsində Rəğaib qəndili və 27-ci gecəsində Merac qəndili; Şaban ayının on beşinci gecəsində Bəraət qəndili və Ramazan ayının son gecələrindən birində (alimlərin əksəriyyətinin ittifaqına görə iyirmi yeddinci gecəsində) Qədr gecəsini yaşayanlarımız idrak edəcəklər. Allah (c.c.) bizləri bu günlərə və gecələrə qovuşdursun, bu günləri və gecələri canlandıranlardan etsin. Bu gün və gecələri aşağıda açıqlayacağıq.

Rəsulullahın Ramazan ayı xaricində ən çox oruc tutduğu ayların Rəcəb və Şaban ayları olduğu Əbu Hüreyrə (r.a.)-dən rəvayət edilməkdədir. Bu aylarda tutulacaq nafilə (savab qazanmaq üçün tutulan) orucda çox böyük əcr və mükafat olduğu bir çox hədislə rəvayət edilmişdir ki, heç olmasa (ayın başında, ortasında və sonunda bir gün olmaq üzrə) üç gün oruc tutmaq uyğun olar.

**RƏĞAİB GECƏSİ**

Rəğaib "çox rəğbət edilən, qiymətli, lütfkar" mənalarına gələn rağibə sözünün çoxluğudur. Buna görə Rəğaib gecəsi deyilincə "çox lütf və ehsan dolu, qiymətli və dəyəri böyük, çox yaxşı qiymətləndirilməsi lazım olan gecə" mənası aydın olar. Xalq arasında "üç aylar" deyə məşhur olan Rəcəb, Şaban və Ramazan aylarından Rəcəb ayının ilk Cümə axşamını cüməyə bağlayan gecəsi olan Rəğaib gecəsi, eyni zamanda Ramazan ayının da ilk xəbərçisi olma şərəfini daşımaqdadır. Rəhmət qapılarının ardına qədər açıq olduğu bu gecə qəflət içində keçirilməməli, bir fürsət gecəsi olaraq qiymətləndirilib ona görə hərəkət edilməlidir.

**RƏCƏB AYI**

Üç ayların ilki olan Rəcəb "təzim olunan ay" və "hazırlanmaq" mənalarına gəlməkdədir. Peyğəmbər Əfəndimiz (s.ə.s) bu aya çatdıqlarında "Allahım! Rəcəbi və Şabanı haqqımızda mübarək et və bizi Ramazana qovuşdur" deyərək dua edərdi. Bu ay içində eyni zamanda Merac, Bərat və Qədr gecəsi kimi mübarək zaman dilimlərinin də bir müjdəçisi olan "Rəğaib" gecəsi vardır. Rəğaib "bir çox ərməğan və lütf" mənasını verən "rağibə" sözünün çoxluğudur. Bu gecədə Cənabı Haqq əngin rəhmətiylə təcəlli edib sonsuz bağışlamasıyla rəftar etdiyi üçün gecəyə bu ad verilmişdir. Rəcəb ayının 27-ci gecəsi isə Merac qəndilidir. Merac söz mənası etibarıyla "nərdivan", "yüksələcək yer", "ən yüksək mövqe" mənalarına gəlməkdədir. Bu gecədə İnsanlığın İftixarı (s.ə.s) bir möcüzə olaraq Məkkədəki Məscidi Haramdan Qüdsdəki Məscidi Əqsaya və oradan da göylərin ilahi dərinliklərinə doğru pərvaz edib ruhən və bədənlə Cənabı Haqqın hüzuruna çıxmışdır.

**ŞABAN AYI**

Üç ayların ikincisi olan Şaban söz mənası etibarıyla "dağılan", "saçılan" mənalarına gəlməkdədir. Bir rəvayətə görə Əfəndimiz (s.ə.s) Şaban ayında Ramazan üçün bir çox xeyir dağıldığı üçün bu aya bu adın verildiyini ifadə etməkdədir. Şaban ayı içərisində Bərat qəndili vardır. Bərat sözü, "borcdan, isnad edilən cinayət/günahdan, ruha əzab verən çətinliklərdən xilas olmaq" mənalarına gəlməkdədir. Bu gecədə Qurani-Kərim, Lövhü Məhfuzdan alınmış və bir bütöv halda dünya səmasına endirilməyə başlanmışdır. Bu səbəblə bu gecə hörmətinə bir çox günah bağışlandığı üçün gecəyə Bərat gecəsi deyilmişdir. Yenə bu ay içində hicrətin ikinci ili müsəlmanların qibləsi Məscidi Əqsadan Kəbəyə çevrilmişdir.

**RAMAZAN AYI**

***Üç ayların sonuncusu olan Ramazan ayı on bir ayın sultanı və ayların ən fəzilətlisidir. Çünki bu ayda Quran nazil olmağa başlamış və ay boyunca oruc tutmaq fərz qılınmışdır. Ramazan sözü "qızğın daş" mənasını verən "ramid" sözündən törəmişdir. Ramazan ayı çox isti və hərarətli bir zaman diliminə düşdüyü üçün ona bu ad verilmişdir. Ayrıca necə ki, qızğın daş ətrafındakını yandırıb yox edərsə Ramazan da qulların günahlarını yandırıb məhv etdiyi üçün bu aya bu adın verildiyini söyləyənlər də olmuşdur. Bəziləri isə Ramazan sözünün "yağan yağış" mənasını verən "ramıd" sözündən törədildiyini və necə ki, yağışın yağması nəticəsində yer üzünün təmizlənməsi kimi Ramazan ayında da günahların təmizlənməsi səbəbiylə bu aya bu adın verildiyini söyləmişlər. Quranın endirilməyə başlandığı bu ay içində Qurani-Kərimdəki ifadəsiylə min aydan daha xeyirli olan "Qədr gecəsi" vardır. Bu gecə Allahın möminlərə bəxş etdiyi çox uca bir ikramıdır. Ramazanın hər gecəsinin dolu-dolu keçirilməsi üçün bu gecənin zamanı gizlənmişdir. Ancaq Qədr gecəsinin Ramazanın son on günü içində olduğuna dair güclü işarələr vardır.***

# ნოვრუზ ბაირამი

ნოვრუზი სპარსული სიტყვაა. მისი ერთი ნაწილი „ნოვ“ - ახალს, ხოლო მეორე „რუზ“ დღეს ნიშნავს. ოდიგანვე 21 მარტს დღისა და ღამის გათანასწორების, ჰაერის გათბობის, თოვლის დნობის დაწყების, ხეებზე ყლორტის გამოსვლისა და დედამიწის გამოცოცხლების, ანუ სიცოცხლის დაწყების დღედ მიიჩნევენ და შესაბამისად, ნოვრუზ ბაირამიც გაზაფხულის შემოსვლის, ზოგიერთ ქვეყანაში კი ახალი წლის დღესასწაულია.

ნოვრუზის დღესასწაული, როგორც წესი, სამ დღეს გრძელდება. ნოვრუზის დადგომამდე თვის ოთხივე კვირის სამშაბათიც მნიშვნელოვანია.

„სუ ჩერშენბე“ - წყლის სამშაბათია. ამ დღეს წყლის განახლება ხდება. ტრადიციის თანახმად, ამ დღეს ადამიანები მდინარეებსა და წყაროებზე დილით ადრე მიდიოდნენ, სვამდნენ წყალს, იბანდნენ და ერთმანეთს ასხამდნენ. მათი რწმენით, სწორედ ამ დღეს ახლდება წყალი.

ერთი კვირის შემდეგ დგება - „ოდ ჩერშენბე“, ანუ ცეცხლის სამშაბათი. ცეცხლი განასახიერებს მზეს, ის სითბოს ნიშნავს და საერთოდაც, ნოვრუზის სიმბოლოა. ამ დღეს ანთებენ კოცონს, რომელიც აუცილებლად ბავშვმა უნდა აანთოს. მათი რწმენით, მხოლოდ ამ შემთხვევაში იგი წმინდაა და მასზე სამჯერ ან შვიდ ჯერ ხტებიან. ამას სულისა და სხეულის გაწმენდის მიზნით აკეთებენ. სჯერათ, რომ ცეცხლი ყველაფერს ცუდსა და არასასურველს გაანადგურებს. ცეცხლის სამშაბათს ღამეს ოჯახებში იმდენი სანთელი ინთება, რამდენი წევრიც ცხოვრობს.

მესამე ქარის გამოცოცხლობის სამშაბათია. ქარი, როგორც შემოქმედებითი ენერგია, ხეებს ნიადაგის გაღვივებაში, ხოლო ყვავილებს დამტვერვაში ეხმარება. ქარი მთელს ამ ენერგიას ატმოსფეროში ფანტავს. ეს არის ბედნიერების, წარმატების, სიყვარულის, მხიარულობის, განახლების და გამოღვიძების ატმოსფერო.

მეოთხე სამშაბათი „ტორპაგ ჩერშენბე“ - დედამიწის განახლების სამშაბათია. დედამიწა სიცოცხლის, ნაყოფიერებისა და თანასწორობის სიმბოლოა. ამ დღემდე თეფშზე ერთ მუჭა ხორბალს თესავენ. მწვანე ჯეჯილი ბუნების გამოღვიძებას, სიუხვესა და კეთილდღეობას ნიშნავს. ამ დღეს სხვაგვარად, „ახირ ჩერშენბე ახშამს“, ზამთრის ბოლო სამშაბათს უწოდებენ. მეოთხე სამშაბათს, სახლების კართან, ბავშვის ქუდებსაც შეინიშნავთ. ეს ძველი ტრადიციაა. ოჯახის წევრები მათ ქუდებს ტკბილეულით უვსებენ.

ნოვრუზ ბაირამი აღინიშნება გაზაფხულის დადგომასთან არის დაკავშირებული და გვაუწყებს ახალი წლის შემოსვლას. კალენდარში გაზაფხულის პირველი დღე მზის წლიური ბრუნვის დასასრულს გვიჩვენებს.

ნოვრუზ ბაირამის ისტორიული ფესვები უძველეს დროს ღვთის მოციქულის ზარადუსტრას დროს განეკუთვნება.

უძველეს ბაბილონში დღესასწაული იწყებოდა 21 აპრილს (მარტი, აპრილი) და 12 დღეს გრძელდებოდა. თვითოეულ დღეს, თავისი რიტუალები და გართობები ჰქონდა. ნორუზ ბაირამის განსაკუთრებულობა ისიცაა, რომ ის ძველ წელს ახალ წელს აბარებს.

2010 წელს გაეროს გენერალურმა ასამბლეამ ნოვრუზი საერთაშორისო დღეს აღიარა. 2009 წლის 28 სექტემბერს იუნესკოს სამიტზე ნოვრუზი ოფიციალურად იქნა შეტანილი კაცობრიობის არამატერიალური კულტურული მემკვიდრეობის სიაში.

## BU İL FEVRALIN 1-DƏN QEYDİYYATA DÜŞƏN HAMİLƏLƏR ÜÇÜN 8 VİZİT PULSUZDUR

Hamilələr üçün vauçerlə nəzərdə tutulmuş pulsuz tibbi vizitlərin sayı ikiqat artıb. 1 fevral tarixindən qeydiyyata düşən hamilələr 8 tibbi vizitdən yararlanacaqlar. Vizitlər ginekoloqun konsultasiyasından, ultrasəs müayinəsi və analizlərdən ibarətdir. Hamilələr qeyd olunan vauçeri əldə etmək üçün hamiləliyin 13-cü həftəsinə qədər seçdikləri klinikaya müraciət etməlidirlər.

**Birinci vizit – 13 həftəlik hamiləlik müddətinə qədər**

1) Ginekoloqun konsultasiyası.

2) Ümumi qan analizi.

3) Sidik analizi.

4) Qan qrupu və rezusların müəyyənləşdirilməsi.

5) Mənfi qan rezusu olan qadınlarda rezus testləri.

6) Skrininq testlər (B hepatit virusu, C hepatit virusu, HİV infeksiya və Sifilis).

7) Ultrasəs müayinəsi.

**İkinci vizit – hamiləliyin 18-20-ci həftəsi**

1) Ginekoloqun konsultasiyası.

2) Ultrasəs müayinəsi.

**Üçüncü vizit – hamiləliyin 26-cı həftəsi**

1) Ginekoloqun konsultasiyası.

2) Sidikdə proteinuriyanın (sidikdə zülal) müəyyənləşdirilməsi.

3) Qanda hemoqlobinin müəyyənləşdirilməsi.

4) Mənfi qan rezusu olan qadınlarda rezus testləri.

5) Diabetin müəyyənləşdirilməsi məqsədi ilə skrininq.

**Dördüncü vizit – hamiləliyin 30-cu həftəsi**

1) Ginekoloqun konsultasiyası.

2) Sidikdə proteinuriyanın müəyyənləşdirilməsi.

**Beşinci vizit – hamiləliyin 34-cü həftəsi**

1) Ginekoloqun konsultasiyası.

2) Sidikdə proteinuriyanın müəyyənləşdirilməsi.

**Altıncı vizit – hamiləliyin 36-cı həftəsi**

1) Ginekoloqun konsultasiyası.

2) Sidikdə proteinuriyanın müəyyənləşdirilməsi.

3) Qanda hemoqlobinin müəyyənləşdirilməsi.

**Yeddinci vizit – hamiləliyin 38-cı həftəsi**

1) Ginekoloqun konsultasiyası.

2)Sidikdə proteinuriyanın müəyyənləşdirilməsi.

**Səkkizinci vizit – hamiləliyin 40-cı həftəsi**

1) Ginekoloqun konsultasiyası.

2) Sidikdə proteinuriyanın müəyyənləşdirilməsi.

Proqram çərçivəsində bütün hamilələr hamiləliyin 13-cü həftəsinə qədər Fol turşusu və anemiya halları aşkarlandığı halda dəmir tərkibli preparatlarla pulsuz təmin olunurlar.

## QARDABANİ MERİYASININ TƏŞKİLATÇILIĞI İLƏ NƏZƏRLİ VƏ KOSALI MƏKTƏBLƏRİNDƏ GÖRÜŞ KEÇİRİLİB

Barış və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyi, Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi və Davit Ağmaşenebeli adına Gürcüstan Milli Müdafiə Akademiyasının nümayəndələri Nəzərli və Kosalı kənd məktəblərinin yuxarı sinif şagirdləri ilə görüş keçiriblər. Görüş Qardabani meriyasının təşkilatçılığı ilə baş tutub. Tədbiri Gürcüstan barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin Kvemo Kartli bölgəsi üzrə müşaviri Ayaz Məmmədov açaraq məktəb şagirdlərinə mövzu ilə bağlı məlumat verib.



Görüşdə Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili, onun müavini Dünyamalı Hacıyev, bələdiyyə sədrinin müavini Rəfi Orucov da iştirak edib. Görüşdə məktəb şagirdlərini etnik azlıq nümayəndələri üçün nəzərdə tutulmuş layihə ilə tanış ediblər. Layihəni Barış və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyi Gürcüstanda BMT-nin Assosiasiyası və Milli İctimai Xidmət Bürosu ilə birgə həyata keçirir. Layihənin məqsədi gənclərin işlə təmin olunmağa həvəsləndirilməsinə, onların proseslərə qoşulmasına və vətəndaş inteqrasiyasına dəstək olmaqdır. 1+4 proqramından istifadə edən gənclərə dövlətin mərkəzi və yerli özünüidarəetmə səviyyəsində olan müəssisələrində, onlara maraqlı olan sahələrdə təcrübə keçmək imkanı verilir.

Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili gənclərə müraciət edərək onları qarşıdan gələn Novruz bayramı münasibəti ilə təbrik edib və maraqlananlara meriyada təcrübə keçməyi təklif edib.

## KVEMO KARTLİ QUBERNATORU KƏNDLƏRDƏ ƏHALİ İLƏ GÖRÜŞÜB

Kvemo Kartli qubernatoru Qriqol Nemsadze müavinləri Aleksandre Metreveli, Zaur Dargallı və Marneuli bələdiyyəsinin meri Temur Abazovla birgə Qasımlı, Qaçağan, Kvemo və Zemo Saral, Şaumyan kəndlərinin əhalisi ilə görüşüb. Kənd sakinləri mövcud olan infrastruktur və inkişafla bağlı problemlərdən danışıblar, həmçinin qubernatordan yaxın dövrdə həyata keçiriləcək layihələr haqqında məlumat alıblar.

Məlumata əsasən, cari ildə Qasımlı kəndində suvarma suyu kanalının qurulması planlaşdırılır. Layihə üçün büdcədən 10 000 lari dəyərində məbləğ ayrılıb. Əhalinin maraqlarını nəzərə alaraq kənddə küçələrin işıqlandırılması da həyata keçiriləcək.

Qubernator həmçinin Qaçağan kəndində də sakinlərin problemlərini dinləyib və yolların bərpa işi ilə bağlı planlaşdırılan layihəni müzakirə edib. Qeyd olunub ki, yol bərpa işləri mərkəzi və yerli büdcənin maliyyə dəstəyi ilə həyata keçiriləcək. Layihənin ümumi dəyəri isə 371 265 laridir.

Şaumyan kəndində isə uşaq bağçasında zalın tikinti işləri həyata keçirilir. Layihə yerli büdcədən maliyyələşir və dəyəri 38 136 laridir.

## MARNEULİDƏ MÜASİR ÖZƏL TƏHSİL KOMPLEKSİ YARADILACAQ

Marneuli rayonunda müasir özəl təhsil kompleksi yaradılacaq. Gürcüstanın Dövlət Əmlakı üzrə Milli Agentliyi kompleks üçün Marneulidə, Abdulla Şaiq küçəsində yerləşən 3520 kvadrat metr torpaq sahəsini və sahədə yerləşən binaları 500 min lariyə "Beynəlxalq Təhsil Mərkəzi" MMC-yə verib.

Yeni təhsil kompleksində məktəbəqədər təhsil müəssisəsi, idman-rekreasiya infrastrukturu, dil tədrisi, peşə təhsili və ixtisasartırma mərkəzi fəaliyyət göstərəcək. Kompleks azərbaycanlılar tərəfindən dövlət dilinin öyrənilməsi və onların Gürcüstan cəmiyyətinə inteqrasiyasında mühüm rol oynayacaq. 500 şagirdin təhsil alacağı kompleksdə 50 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

# İCTİMAİ MƏKTƏBLƏRDƏ 70-80 YAŞLI 2501 NƏFƏR MÜƏLLİM ÇALIŞIR

*Milli Statistika Xidmətinin 2018-ci il göstəricilərinə əsasən, ictimai məktəblərdə 80 yaşlı 224 nəfər, 71-dən 80 yaşa qədər isə 2501 nəfər müəllim çalışır. İşlə təmin olunanlar arasında ən az – 9 müəllim 21 yaşındadır. Təqaüd yaşında olan pedaqoqlar niyə peşələrində qalırlar? Bunun səbəbləri haqqında Mülki İnteqrasiya və Millətlərarası Əlaqələr üzrə Mərkəzin direktoru Şalva Tabatadze danışıb.*

**- Cənab Şalva, bu gün təqaüdçü müəllimlərin sistemdə qalması və məktəbi tərk etmək motivasiyalarının olmaması problemdirmi?**

Necə problem deyil. Təqaüd yaşı ona görə müəyyən edilib ki, bu yaşda insan müəyyən bacarıqlardan istifadə edə bilmir. İkinci problem odur ki, təqaüd yaşındakılar sistemə yeni kadrları buraxmırlar. Bu gün məktəblərdə 31 yaşa qədər müəllimlərin yalnız yeddi faizi işlə təmin olunub.

Düzdür, istəyi olanlar da azdır, amma kimin istəyi var o da daxil ola bilmir. Çünki sistem buna imkan yaratmır. Təqaüd yaşında olan müəllimlərin heç bir təqaüdə çıxmaq istəkləri və motivasiyalarının olmaması da xüsusi əhəmiyyət daşıyır. Səbəb sadədir – dövlət məmurlarından fərqli olaraq onlar çalışdıqları müddətdə təqaüdlərini də alırlar.

**- 70-80 yaşlı müəllimlərin yerində qalmaması üçün nə edilməlidir?**

Müəllimin təqaüdlə təmin edilməsi davamlı və mütərəqqi şəkildə olmalıdır. Əgər DİN-in, Müdafiə Nazirliyinin əməkdaşlarına və Parlament deputatlarına fərqli təqaüd veririksə, müəllimləri də xidmətindən fərqli təqaüdlə təmin edərək azad edə bilərik ki, işdən getdikdən sonra sosial müdafiəsiz şəxslərə çevrilməsinlər.

Bu çox vacibdir – əgər müəllim fərqli təqaüdlə təmin olunarsa deməli onun prestiji yüksəlir. Dövlət



yaxşı kadrları cəlb etmək istəyirsə, müəllimi yaxşı təqaüdlə təmin etməlidir. Bu, sistemə daha kvalifikasiyalı kadrları cəlb edəcək və müəllimlərin avtoritetini də artıracaq.

**- Bu reallıq daha hansı problemləri yaradır?**

Əgər analiz etsək görərik ki, bu gün sistemdə rəqabət sıfırdır. Universitetlərdə müəllimlik ixtisasına təqribən 780 yer var, ancaq müraciət edənlərin sayı olduqca azdır. Yəni universitetlərdə istəyi olanların sayından çox yerimiz var. Finlandiyanın universitetlərindən biri 120 nəfər tələbə qəbul edir, ancaq qəbul üçün 1600 müraciət daxil olur. Onlar yaxşılardan ən yaxşısını seçirlər. Bizdə isə, yaxşını seçmək bir yana, yerlərimiz boş qalır.

Bu o deməkdir ki, bu ixtisasa müqayisədə aşağı kvalifikasiyalı abituriyentlər müraciət edirlər. Buna bakalavr və magistr proqramlarında tədris keyfiyyətinin aşağı olması da əlavə olunur. Bununla demək istəyirəm ki, problem yalnız məktəblərdə deyil. Sistemə daxil olanların kvalifikasiyasında da problem var.

**- Niyə bu istiqamətdə heç bir addım atılmır?**

Bunun üçün ciddi reforma lazımdır. Müəllimin sertifikatlaşdırılmasını nəzərdə tutan bundan əvvəlki sistem, peşəkar və eləcə də hər hansı fənn üzrə olursa olsun direktora öhdəlik qoyurdu ki, çalışmaq istəyi olan kvalifikasiyalı pedaqoqlara üstünlük versin. Direktor məcbur olacaqdı ki, kvalifikasiyası aşağı olan müəllimi evə göndərsin. Audit xidməti eksperiment də keçirdi. Kvalifikasiyalı kadrların sənədlərini vakansiyalardan birinə göndərdilər və həmin şəxsləri müsahibəyə də çağırmadılar.

**- Necə düşünürsünüz, niyə?**

Çünki direktorun öz seçdiyi kadrlar var idi və onun üçün kompetensiyanın heç bir əhəmiyyəti yoxdur. Dövlət tərəfindən buna tələb yoxdur. İmtahanı verə bilməyən 45 min müəllim öz yerində qaldı. Bundan əlavə məktəbləri dəyərləndirən sistem mövcud deyil, avtorizasiya-akreditasiya yalnız özəl məktəblərə aiddir, ictimai məktəbdə bu proses yoxdur. Ona görə də məktəbdə daha kvalifikasiyalı kadrın olmasına dair maraq yoxdur.

Təsəvvür edin, 60 yaşını keçmiş şəxslər işdə qalır. Yeni nəsil – yeni dəyərlər, yeni bilik və yanaşmalar gətirir. Bu isə müasir həyat tərzinin inkişafı üçün vacibdir. Bu gün məktəblərdə bu yenilik yoxdur, çünki yenilənmə baş vermir. Həmçinin, dəyər və yanaşmalar baxımından da problemlər var. Ümumi götürəndə isə, bu asan həyata keçiriləcək iş və hamının xoşuna gələcək reforma deyil.

**- Dövlət dəyişikliklər etməyə hazırlaşmırsa, xaricdə təhsilini maliyyələşdirdiyi, qərb təhsili və yüksək kvalifikasiya verdiyi şəxslərə nə təklif edir?**

Avropada təhsil almış adamlar işləmək üçün nə universitetə, nə də məktəbə gedirlər. Bu nəslin ali təhsil müəssisəsində edə biləcəyi maksimum iş leksiya oxumaq ola bilər. Bu, tədqiqi, pedaqoji iş demək deyil. Bu şəxslər akademik sahədə işlə təmin olunmayıblar. Ancaq onlar ölkənin inkişafı üçün əhəmiyyətli iş görürlər və bu bizdə olan və bizə lazım olanın çox az faizidir.

*Gürcü dilindən tərcümə:*
*Aynurə Əliyeva*

## ÖTƏN TƏDRİS İLİNDƏ 11 796 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB

2016-2017-ci ildə cəmi 11 796 şagird təhsilini dayandırıb, onlardan 4 740 nəfəri qızdır. Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, 2017-2018-ci tədris ilinin başlanğıcı üçün ölkə miqyasında ictimai məktəblərdə cəmi 518 038 şagird qeydiyyat olunub. Onlardan 248 268 nəfəri qızdır, 269 770-i isə oğlandır. Özəl məktəblərə isə 57 143 nəfər qeydiyyat olunub. İctimai məktəblərdə şagirdlərin sayı keçən ilin analoji göstəriciləri ilə müqayisədə 9150 uşaq çoxdur. 2016-2017-ci tədris illəri üçün 508 888 şagird qeydə alınıb.

Gürcüstan Milli Statistika Xidmətinin veb-səhifəsində yayımlanan məlumatda deyilir ki,onlardan

I sinifdə 51 342 şagird qeydə alınıb,
II sinifdə 54 429,
III sinifdə 42 759,
IV sinifdə 42 974,
V sinifdə 41 363,
VI sinifdə 41 108,
VII sinifdə 47 398,
VIII sinifdə 46 135,
IX sinifdə 40 140,
X sinifdə 37 989,
XI sinifdə 36 638,
XII sinifdə 35 763.

Məktəblərin sayına gəldikdə isə, Statistika Xidmətinin rəsmi göstəricilərinə əsasən, Gürcüstanda 2017-2018 tədris ilində cəmi 2 308 məktəb qeydə alınıb. Bunlardan 2085-i ictimai, 223-ü isə özəl məktəblərdir. Məktəblərin 287-si Tbilisi şəhərində yerləşir.

2017-ci ildə məktəbin baza pilləsini (9 sinif) 44 059 şagird bitirib. 38 165 şagird isə orta təhsil (11 sinif) alıb.

Pedaqoqların sayına gəldikdə isə, rəsmi göstəricilərlə 2017-2018-ci tədris illərində ölkədə cəmi 66 634 müəllim var. Onlardan 59 544-ü ictimai məktəblərdə, 7090 nəfəri isə özəl məktəblərdə dərs keçir.

## KETEVAN TSİXELAŞVİLİ: "ETNİK AZLIQLARIN NÜMAYƏNDƏLƏRİ SİYASƏT DƏ DAXİL OLMAQLA MÜXTƏLİF SAHƏLƏRƏ CƏLB OLUNMALIDIR"



"Gürcüstanda milli azlıqların kompakt yaşadığı bölgələrdə dövlət dilinin öyrənilməsi səviyyəsinin artırılması əsas vəzifə olaraq qalır". Bunu Gürcüstanın barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili milli azlıqlarla bağlı fəaliyyət planının təqdimat mərasimində deyib.

O bildirib ki, milli azlıqlar arasında gürcü dilinin tədrisi səviyyəsinin artırılması istiqamətində gələcək illərdə bir sıra maraqlı layihələrin həyata keçiriləcəyi gözlənilir.

K. Tsixelaşvili etnik azlıqların nümayəndələrinin siyasət də daxil olmaqla, müxtəlif sahələrə cəlb olunmasının əhəmiyyətini vurğulayıb: "2017-ci il bu sahədə yenilikə yadda qaldı. Etnik azlıqlardan olan və 1+4 proqramının uğurlu tələbələri üçün dövlət strukturlarında təcrübə proqramı təşkil olundu. Milli azlıqlardan olan gənclərin peşə təcrübəsi qazanması çox vacibdir".

Dövlət naziri əlavə edib ki, Gürcüstan dövlətinin vətəndaş inteqrasiyası sahəsi üzrə 2020-ci ilə qədər təsdiq olunmuş strategiyası var: "Strategiyanın əsas məqsədi etnik və dini mənsubiyyətindən asılı olmayaraq Gürcüstanın hər bir vətəndaşının ölkə həyatının bütün sahələrində özünü bərabərhüquqlu hesab etməsidir".

# XARİCDƏ TƏHSİL



*Tunzalə Məmmədova*
*Varşava Universiteti, Beynəlxalq İqtisadiyyat fakultəsi*

***"Elm öyrənmə təşnəsi sərvət təşnəsi kimi onu əldə etdikcə artır" – Lourens Stern.***

Daha öncə Türkiyədə başladığım xaricdə təhsil həyatıma hal-hazırda Polşanın paytaxtı Varşavada davam edirəm. Qısa müddətli Erasmus Tələbə Dəyişmə proqramıyla gəldiyim bu ölkə məni həm təhsil sistemi, həm də quruluşca cəlb etdi və magistr təhsilimi də burada davam etdirməyə qərar verdim. Tamamilə yeni bir mədəniyyət mühitində olmaq, qorxuducu olmaqla birlikdə olduqca maraqlıdır. Bu yolda çətinliklərə hazır olmaqla həyat boyu faydalı olacaq təcrübələr qazana biləcəyimizi düşünürəm.

Xaricdə təhsil bir şəxsin karyerasını qurma prosesi üçün ən önəmli təsir edici amillərdən biridir. Günümüzdə tələbələr qloballaşan dünyaya və yeni texnologiyalara uyğunlaşmağa çalışırlar. Xaricdə təhsil fərqli mədəniyyətlərlə əlaqə qurmağımıza imkan yaradır və tələbələrin həyatına əvəzolunmaz bir təcrübə qatır. İlk öncə unutmamaq lazımdır ki, dünyanın müxtəlif ölkələrindən xarici tələbələr sizinlə təhsil alacaq və bu, yaşadığınız ölkə ilə yanaşı dünyanın dörd guşəsindən insanlarla tanış olmağınıza imkan yaradacaq. Bu, həm kommunikasiya, həm də dil bacarıqlarının inkşaf etməsinə kömək edəcək. Bu təcrübə tələbələrdə yetkinlik, özünə güvən yaratmağa və nəticədə tələbələrin daha çox yönlü bir insana çevrilmələrinə səbəb olacaqdır.

İkincisi, xaricdə təhsil səyahətə imkan verir. Tələbələr həftə sonları və ya semestr fasilələri zamanı yaxın-uzaq bir çox yerə səyahət edə bilərlər. Xaricdə təhsil bütün günü kitab oxumaq deyil, müxtəlif həyat tərzləri, mədəniyyətlərlə və yeni mühitlə tanış olmaq deməkdir. Məsələn, Avropada təhsil alırsınızsa bu Şengen vizanızın bir çox Avropa ölkəsində keçərli olduğu anlamına gəlir və ucuz aviabiletlər əldə edərək dünyanı kəşf edərək öyrənə bilərsiniz. Ən əsası, xaricdə təhsil iş imkanları artırır. Xaricdə aldığınız təhsilin CV-nizdə əks olunması özəlliklə beynəlxalq şirkətlərdə işə alınma şansını artırır. Beynəlxalq şirkətlərin gözündə xaricdə təhsil almış biri müstəqildir və çətinliklərin öhdəsindən gəlməyə hazırdır. Əlbəttə buradaki ən önəmli amil xaricdə təhsil müddətində öyrəndiyiniz dil bacarıqlarıdır.

Niyə Polşa? Bunun ən önəmli səbəbi digər Avropa Birliyi ölkələrinə nisbətən aşağı qiymətli təhsil və yaşam xərclərinə malik olmasıdır. 300-400 avro ərzaq, kirayə və nəqliyyat kimi əsas xərcləri ödəmək üçün kifayətdir. İllik təhsil haqqı digər AB ölkələrindəkindən dəfələrlə aşağıdır – 2000 avrodan başlayır. Polşada tələbə olmağın üstünlüklərindən biri isə tələbə kartımın mənə bir çox sahədə endirimlər verməsidir. Bunlardan biri transportdur – tələbə kartınıza endirimli 3 aylıq nəqliyyat haqqı yükləyərək istədiyiniz transportdan dilədiyiniz qədər, kart basmadan, pul vermədən istifadə edə bilərsiniz. Tələbə kartınız həmçinin bütün muzeylərdə və bəzi restoranlarda endirim təklif edir. Bir sözlə, bu ölkə tələbənin dostudur.

Ayrıca seçtiyiniz ixtisasla bağlı bir çox ölkədə keçərli diplom edə bilər və keyfiyyətli təhsil ala bilərsiniz. Polşada 450-dən çox ali təhsil müəssisəsi var. Bunların ilk üçü reytinqlərdə ən üst sıralarda yer alır. Bu universitetlərdən biri Mərkəzi Avropadakı ən qədim universitet – Yagellon Universitetidir (Jagiellonian University). Bundan başqa, 1816-cı ildə qurulan Varşava Universiteti Polşanın ən böyük universitetidir. Universitet 37 müxtəlif təhsil sahələri üzrə 100-dən çox ixtisas təklif edir. "Adama Mickiewicz" Universiteti bu üç universitet içində ən gəncidir və hüquq və tarix fakültələri ilə tanınır.

Erasmus Tələbə Dəyişmə proqramı: Polşa Socrates-Erasmus proqramının bir hissəsidir və hər il Avropanın dörd guşəsindən minlərlə tələbə bu proqramla təhsil alır. Bu proqramla gələn tələbələrlə ünsiyyət qurma imkanıyla birlikdə, siz də o tələbələrdən biri ola bilər və başqa bir Avropa ölkəsində qısa müddətli təqaüdlə təhsil ala bilərsiniz.

Ümumi olaraq, xaricdə təhsil həm keyfiyyətli təhsil, həm insanın özünü inkişaf etdirməsi baxımından önəmlidir. Polşada təhsil almaq isə təklif etdiyi, aşağı qiymətli və keyfiyyətli təhsil sistemi ilə ən çox tələbat olan ölkələr arasındadır.

***Verdiyim məlumatlarla bağlı suallarınızı tunzala.mamedova@yahoo.com mail adresimə ünvanlaya bilərsiniz.***

## MİLLİ, QRANT, ÜMUMİ MAGİSTR VƏ MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR BAŞLADI

**2018-ci il Vahid Milli İmtahanlara, tələbələrin qrant müsabiqəsinə, ümumi magistr imtahanlarına və müəllimlərin fənn imtahanlarına qeydiyyat 5 mart tarixindən başlayıb və 30 mart saat 18:00-a qədər davam edəcək.**

**Prosedurlar:**

**Abituriyentlər proqramlara müraciət sayı haqqında məlumatla xüsusi sistem vasitəsilə tanış olacaqlar – qeydiyyat başlayandan səhifə qüvvəyə minəcək və hər gün səhifəyə konkret proqramlara müraciət sayları haqqında məlumat yerləşdiriləcək.**

**Müraciət edənlər Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin veb-səhifəsində (www.naec.gov.ge və online.naec.ge) elektron formatda qeydiyyatdan keçməlidirlər.**

**İmtahanlar Mərkəzinin məlumatına görə, abituriyentlərin qeydiyyat prosesi bu il də bir neçə mərhələdən ibarət olacaq:**

**• Abituriyentlər 30 mart tarixinə qədər şəxsi göstəricilərini, imtahan verəcəkləri şəhəri və imtahan verəcəkləri fənnləri ilkin, əsas mərhələdə daxil edə biləcəklər.**

**• 30 martdan sonra abituriyent imtahan verəcəyi şəhəri dəyişə bilməz. Ancaq 15 may saat 18:00-a kimi imtahan əlavə edə və ya fənn dəyişə bilər.**

**• Müraciət edənlərin tədris proqramları siyahısında dəyişiklik etməsi apelyasiya nəticələrinin elan edilməsinə qədər mümkündür.**

**Tələbələrin qrant müsabiqəsində və Vahid Milli İmtahanlarda iştirak etməsinin dəyəri (bir imtahan üçün) 10 laridir.**

**Milli İmtahanlar Mərkəzindən verilən məlumata görə, elektron qeydiyyat bazası qeyd olunan məbləğ ödənmədən açılmayacaq. İlk əvvəl aşağıda qeyd olunan vasitələrlə məbləği ödəyirsiniz, sonra elektron formatda qeydiyyatdan keçirsiniz.**

**Mümkün olan ödəmə vasitələri və bank xidmətlərinin vergisi:**

**• Mərkəzin veb-səhifəsindən – ödənilən ümumi dəyərə xidmət vergisi olaraq 0,5 lari əlavə olunur;**

**• "Gürcüstan Bankı"nın ("Saqartvelos banki") xidmət mərkəzlərindən – ödənilən ümumi dəyərə xidmət vergisi olaraq 0,5 lari əlavə olunur;**

**• İpay.ge veb-səhifəsindən – ödənilən ümumi dəyərə xidmət vergisi olaraq 1lari əlavə olunur;**

**• "Gürcüstan Bankı"nın ("Saqartvelos banki") xidmət terminallarından – ödənilən ümumi dəyərə xidmət vergisi olaraq 1 lari əlavə olunur;**

**• "Gürcüstan Bankı"nın ("Saqartvelos banki") internet bankinqi vasitəsi ilə (ibank.ge) – ödənilən ümumi dəyərə xidmət vergisi olaraq 1 lari əlavə olunur;**

**• "TBC Bank"ın xidmət terminalı – ödənilən ümumi dəyərə xidmət vergisi olaraq 1 lari əlavə olunur;**

**• PayBox xidmət terminalı – ümumi dəyərə xidmət vergisi olaraq 0,5 lari əlavə olunur;**

**Müraciət edənlər imtahan kartlarının elektron versiyasını sonradan şəxsi səhifələrindən (qeydiyyatdan keçdikləri səhifə) çap edə bilərlər. Vacibdir ki, kartda verilən bütün məlumatlar düzgün (yarımçıq, qaralama səhvlər olmadan və.s) olsun.**

## BU İL 16-17 SENTYABR TARİXİNDƏ ANADAN OLMUŞ UŞAQLAR DA BİRİNCİ SİNFƏ DAXİL OLA BİLƏCƏKLƏR

Gürcüstan Təhsil və Elm Nazirliyinin məlumatına görə, 2018-2019-cu tədris ilində 16-17 sentyabr tarixlərində anadan olmuş uşaqlar da birinci sinfə gedə biləcəklər. Yeni tədris ili 2018-ci ilin 17 sentyabr tarixində başlayacaq. Çünki nazirin sərəncamı ilə tədrisin başlama tarixi kimi təyin olunan 15 sentyabr istirahət gününə təsadüf edir və tədris ili qanunda olan qeydə əsasən, bazar ertəsi, 17 sentyabrda başlamalıdır. Qanunla məktəbə daxil olma yaşı 6 yaş müəyyən edilib.

Nazirlikdən bildiriblər ki, 15-17 sentyabr tarixlərində altı yaşı tamam olan bütün uşaqlar məktəbə qəbul olunacaq.

## TƏHSİL NAZİRLİYİ BİRİNCİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN 55 050 ƏDƏD NOUTBUK ALACAQ

Gürcüstan Təhsil və Elm Nazirliyi birinci sinif şagirdləri üçün 55 050 ədəd noutbukun alınması üçün tender elan edib.

Nazirlik noutbukları "Mənim ilk kömpüterim" proqramı çərçivəsində əldə edəcək. Kompüterlərin təxmini dəyəri 22 845 750 laridir. Məbləğ dövlət büdcəsindən ödənəcək.

Təhsil və Elm Nazirliyi 2017-ci ildə birinci sinif şagirdləri üçün 53 700 ədəd kömpüter əldə edərək 19 975 326 lari məbləğ sərf etmişdir.

Ötən il bir ədəd kömpüterin təxmini qiyməti 398 lari idi. 2018-ci ilin tenderində isə bir ədəd kömpüterin təxmini qiyməti 415 lari olacaq. Belə ki, bir kömpüterin dəyəri ötən illə müqayisədə 17 lari artıb.

Bazarın tədqiqatı zamanı şirkət tərəfindən nazirliyə təklif olunan minimal məbləğ bir kompüter üçün 460 larini təşkil edirmiş. Kompüterin tərkib hissələrinin kəskin bahalaşması qiymətlərin də artmasına səbəb olub. Ancaq nazirliyin analizinə əsasən, bir kömpüterin təxmini qiyməti 415 lari olaraq müəyyən edilib.

# VƏTƏN! TƏHSİL! UĞUR!

***Mən Gürcüstanın övladıyam. Bu ölkədə doğulub boya-başa çatmışam, milliyyətcə azərbaycanlıyam. Gürcüstan mənim yaşadığım və böyüdüyüm vətənimdir. Vətən – necə də gözəl və mənalı kəlimədir. Həcmcə kiçik olan bu sözdə dərin və hikmətli bir məna gizlidir. Dünyada yaşayan hər bir insanın, bütün canlıların öz vətəni var. Vətən sevgisi insana ana südü ilə verilir. Vətən sevgisi ana sevgisi qədər müqəddəsdir. Vətənimə, doğma Gürcüstanıma olan hədsiz sevgim heç bir gürcü övladının sevgisindən fərqlənmir. Əsl vətəndaş ona deyərəm ki, vətən sevgisi ilə yoğrulsun. Hər bir insan ana və vətən qarşısında borcludur. Bu borcu ödəmək hər bir insanın vəzifəsidir. Vətən qarşısında mən də bütün həyatımı, bütün varlığımı borcluyam. Vətənə olan borcumu oxumaqla və ona müxtəlif sahələrdə xidmət etməklə ödəməyi düşünürəm.***

Bir sıra layihələrdə iştirak edirəm. Gürcüstanın müxtəlif bölgələrinə səyahət edir, müxtəlif mövzularda təlimlər keçirəm. “World Vision” layihəsi çərçivəsində açdığım Qasımlı Gənclər Mərkəzinin müdiri olaraq fəaliyyət göstərirəm. Mərkəzimizin 150 üzvü var. Təşkilatda rəsmi və qeyri-rəsmi görüşlər və təlimlər keçirilir. Bu günə qədər bir sıra layihələrdə və müsabiqələrdə qalib olmuşam. 90-dan artıq yerli və beynəlxalq təlimlərdə iştirak etmişəm. Gürcüstanda doğulduğum üçün həmişə fəxr hissi keçirmişəm. İstəyirəm Vətənimlə fəxr etdiyim kimi, Vətənim də mənimlə fəxr etsin. Fikrimcə güclü gənclik güclü dövlətin, parlaq gələcəyin ən bariz nişanəsidir. Məhz buna görə də, əziz oxucular, biz gənclər güclü olmalı, təhsil yolunda irəliləməliyik ki, həm inkişaf edək, həm də inkişaf etdirək. Bir ölkənin məhv olması üçün onun təhsil səviyyəsini aşağı salmaq kifayətdir. Bugünkü məktəbli nə qədər savadlı, nə qədər yüksək dünyagörüşünə malik olarsa dövlətin, millətin gələcəyi bir o qədər işıqlı və ümidverici olar. Qurani-Kərimdə də buyrulduğu kimi, bir gənc başqa dəyərlərə nisbətən haqqı daha tez qəbul edir, ictimai vəzifələrini həyata keçirməkdə daha fəal hərəkət edir, güclü iradə və zehni sahəsində elmin dərin üfüqlərinə gedib çıxa bilir, yorulmadan düşünüb təfəkkür edə bilir.

İnsan həyatının əsl bəzəyi təhsildir. Hər bir insan öz həyatını təhsillə, oxumaqla qurmalıdır. Heç vaxt umidsizliyə qapılmamalı, ümidə sarı möhkəm durmaqla həyata tutunmalıyıq. Bir xalq yalnız inkişaf etmiş cəmiyyəti, təhsilli gəncliyi ilə qürur duya bilər. İrqindən, dinindən, cinsindən və milliyətindən asılı olmayaraq hər bir gəncin təhsil almaq hüququ var. Gənclik ən böyük qüvvədir və dövlətin müstəqilliyinin inkişafının ən böyük qarantıdır. Qarşıda böyük bir gələcək səbirsizliklə bizləri gözləyir. Uğura gedən yol isə həmişə təhsildən keçir.

Hər birimiz həyatımızı öz düşündüyümüz kimi yaşayırıq. Çox zaman biz qazana biləcəyimiz uğurları görə bilməyib öz işimizin içində vurnuxuruq. Həyatda bütün maneələri aşmaq və arzu etdiyimiz uğurları qazanmaq üçün qarşımıza məqsəd qoymağımız və fikirlərimizi lazım olan istiqamətdə yönəltməyimiz kifayətdir. Uğurlu insan bu xüsusiyyətlərə anadan gələn gündən malik olmur, o, qarşısına məqsəd qoyur, çalışır, vurnuxur və sonda buna nail olaraq yüksək nəticə əldə etməyi bacarır. Çox vaxt bizə elə gəlir ki, çox işləyirik, amma az iş çatdırırıq. Düşünürük ki, çox vaxt sərf etmişik, amma qarşıda gördüyümüz nəticə elə də böyük deyil. Belə də zənn edirik ki, biz dəyərli vaxtımızı ya başqalarına, ya da lazımsız işlərə sərf edirik. Bu, tamamilə səhv düşüncədir. Əgər belə düşüncələrə yenilsək onda həyatımızı çökdürmüş, özümüzü isə qocaman bir boşluğa atmış olarıq.



*Arzu Bayramova*

Həyatda ən böyük məqsədim öz dövlətimin, Gürcüstanımın vətəndaşlığını qazanmaqdan, təhsilimi davam etdirməkdən və ailəmin, yaxınlarımın gözləntilərini doğrultmaqdan ibarətdir. Təəssüf ki, ölkə vətəndaşlığım omadığı üçün hələ də böyük həvəslə arzuladığım universitet həyatı, tələbəlik şirinliyini duya bilməmişəm. Doğma vətənimdə xarici vətəndaşlıq daşısam da, qəlbimdəki vətən sevgisi, ölkəm üçün atmağa başladığım addımlarla ölkəmə öz qatqımı verirəm. Bilirəm, bir gün, lap yaxında mütləq qəlbimdəki vətən sevgim özünü rəsmi vətəndaşlığımda da tapacaq. Mən də digər gənclər kimi öz ölkəmdə addımlarımı ali təhsil müəssisəmə atacam. İnanmaq elə məsələnin yarısının həllidir!

***Unutmayaq ki, həyatın dəyişməsi 20-30 ildə deyil, insanın dəyişməyə qərar verdiyi anda baş verir.***

## GÜRCÜ DİLİNİN TƏDRİSİ LAYİHƏSİNİN TƏQDİMATI OLUB

Gürcüstan Parlamentinin Tbilisidə yerləşən binasında azərbaycanlılara dövlət dilinin tədrisi üzrə innovativ metodlara əsaslanan layihənin təqdimat mərasimi keçirilib.

Tədbirdə çıxış edən Gürcüstan Parlamentinin insan hüquqları və vətəndaş inteqrasiyası komitəsinin sədri Sofio Kiladze ölkədə yaşayan bütün milli azlıqların dövlət dilini öyrənməsinin çox vacib olduğunu vurğulayıb.

O bildirib ki, hər bir vətəndaşın ölkə cəmiyyətinə tam inteqrasiyası və məşğulluğu üçün dövlət dilini bilməsi əsas şərtdir: “Müasir dövrdə rəqəmsal texnologiyalar inkişaf edir və dilin tədrisində də onların tətbiqi vacibdir. Yeni layihə yalnız Gürcüstan azərbaycanlıları arasında deyil, ölkədəki bütün etnik azlıqlar üçün də həyata keçirilə bilər”.

S. Kiladze qeyd edib ki, rəhbərlik etdiyi Parlament komitəsi yeni layihəni dəstəkləyir.

“Etnik azlıqların nümayəndələri, yüksək dağlıq regionlarda yaşayan və xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün tədrisin yeni üsulları” adlı layihənin ilkin mərhələdə azərbaycanlıların kompakt yaşadığı Kvemo Kartli bölgəsində həyata keçirilməsi nəzərdə tutulub. Azərbaycanlıların gürcü dilini öyrənməsi üçün Azərbaycan və gürcü dillərində müxtəlif mövzular üzrə əyləncəli və oyun formasında tapşırıqların olduğu proqram da hazırlanıb.

Təqdimat mərasimində Kvemo Kartli bölgəsinin rəsmi şəxsləri, Azərbaycan icmasının üzvləri və digər şəxslər iştirak edib.

## AZƏRBAYCANDA 14 NƏFƏR GÜRCÜSTAN VƏTƏNDAŞI ALİ TƏHSİL ALIR

2017-2018-ci tədris ilində Gürcüstanda ali təhsil alan Azərbaycan vətəndaşlarının sayı 2691 nəfərdir.

Gürcüstanın Milli Statistika İdarəsinin hesabatına əsasən, ötən tədris ili ilə müqayisədə Gürcüstanda ali təhsil alan Azərbaycan vətəndaşlarının sayı 41 nəfər çoxdur.

Azərbaycan vətəndaşlarının 501-i Gürcüstanın dövlət, 2190-ı isə özəl ali məktəblərdə təhsil alır.

Gürcüstanın müxtəlif ali məktəblərində ümumilikdə 10 063 xarici ölkə vətəndaşı təhsil alır.

Cari tədris ilində Azərbaycanda ali təhsil alan Gürcüstan vətəndaşlarının sayı isə 14 nəfər təşkil edir. Onların hamısı özəl ali məktəblərdə təhsil alır.

## MÜƏLLİMLƏRİN FƏNN ÜZRƏ İMTAHANLARA QEYDİYYATI BAŞLADI

2018-ci ilin müəllimlərin kompetensiyalarını təsdiqləmə və fənn üzrə imtahanlara qeydiyyatı 5 mart tarixindən başlayıb və 30 mart tarixinə qədər davam edəcək. Təcrübəçi müəllimlər üçün qeydiyyat pulsuzdur. Müəllim olmaq istəyənlər üçün isə qeydiyyatın dəyəri 50 laridir. İmtahanlar Mərkəzinin məlumatına görə, 2018-ci ildə təcrübəçi müəllimlər fənn kompetensiyasından əlavə peşəkar kompetensiyalarını da təsdiqləyə bilərlər. Müəllim olmaq istəyi olanlar isə yalnız fənn üzrə imtahan verə bilərlər.

Sonrakı fənnlər üzrə kompetensiyanı təsdiqləmək və imtahan vermək olar:

- Gürcü dili və ədəbiyyatı (Başlanğıc pillə)
- Riyaziyyat (Başlanğıc pillə)
- Təbiətşünaslıq (Başlanğıc pillə)
- Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I – IV siniflər)
- Gürcü dili və ədəbiyyatı (Baza və ya orta pillə)
- Gürcü dili ikinci dil olaraq (Başlanğıc, baza və ya orta pillə)
- Riyaziyyat (Baza və ya orta pillə)
- İctimai elmlər (Baza və ya orta pillə): a) Tarix b) Coğrafiya c) Vətəndaş təhsili
- Təbiət elmləri (Baza və ya orta pillə): a) Fizika b) Kimya c) Biologiya
- Xarici dillər (Başlanğıc, baza və ya orta pillə) : a) İngilis dili b) Alman dili c) Fransız dili ç) Rus dili
- Estetik yetişdirmə fənnləri: a) Tətbiqi və təsviri incəsənət b) Musiqi c) İdman
- Məlumat və kommunikasiya texnologiyaları

Müəllimlərin 60 kreditlik hazırlıq proqramına yalnız bir fənn imtahanı vermək üçün bakalavr, magistr və ya ona bərabər olan akademik dərəcəsi olan şəxslərin qoşulmaq hüququ var.

2018-ci ilin peşəkar bacarıqlar üzrə testi üç hissədən ibarətdir: tədris mühiti, tədris və peşəkar inkişaf. Ən yüksək bal 70-dir.

Müəllim olmaq istəyənlər paralel olaraq Təhsil Resurs Mərkəzlərində qeydiyyatdan keçməli və aşağıdakı sənədləri təqdim etməlidirlər:

Şəxsiyyət vəsiqəsinin surəti;

Qanunvericiliklə təyin olunmuş qaydada attestatın təsdiqlənmiş surəti.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

15 MART 2018-Cİ İL
№003 (62)

## NOYABRIN 1-NƏ KİMİ ŞƏXSİYYƏT VƏSİQƏSİ PULSUZ VERİLƏCƏK



Vətəndaşların müəyyən kateqoriyası martın 1-dən noyabrın 1-nə qədər şəxsiyyət vəsiqəsini pulsuz ala biləcəklər.

Kateqoriyaya daxildir:

- İlk dəfə şəxsiyyət vəsiqəsi alanlar
- Noyabrın 1-ə kimi 18 yaşı tamam olanlar
- Şəxsiyyət vəsiqəsinin şəkli keyfiyyətsiz olanlar
- Agentliyin məlumat bazasında olmayanlar
- Qeydiyyatdan çıxarılmış şəxslər
- Ünvansız qeydiyyatdan keçmiş şəxslər
- Hüquqi qüvvəsi olan heç bir sənədi olmayanlar
- Gürcüstanın işğal edilmiş ərazisində qeydiyyatda olan və məcburi köçkün statusu olamayan, şəxsiyyət vəsiqəsi ləğv olunan şəxslər (Qeyd olunan şəxslər Gürcüstanın işğal olunmuş ərazisində olan müəyyən ünvanda qeydiyyatdan keçdikləri halda aksiyadan istifadə edə bilərlər)

Aksiyadan istifadə etmək istəyən şəxslər ədliyyə evlərinə, dövlət xidmətlərinin inkişaf agentliklərinə və ya ictimai mərkəzlərə müraciət edə bilərlər. Aksiyadan bir şəxs yalnız bir dəfə istifadə edə bilər.

## GÜRCÜSTANIN ETNİK MÜXTƏLİFLİYİNİ ƏKS ETDİRƏN VEB-XƏRİTƏ TƏQDİM OLUNUB

Gürcüstanın Milli Parlament Kitabxanasında Etniklik və Multikulturalizm Araşdırmaları Mərkəzi (CSEM) tərəfindən hazırlanmış, ölkənin etnik müxtəlifliyini əks etdirən veb-xəritənin təqdimatı keçirilib.

Yeni onlayn platformada Gürcüstanın etnik müxtəlifliyi ilə bağlı coğrafi, mədəni, siyasi və sosial göstəricilər də yer alıb.

Xəritədə Gürcüstanın bələdiyyə, bölgə və şəhərləri üzrə etnik tərkibi, Kvemo-Kartli və Samtsxe Cavaxeti bölgəsinin kəndləri üzrə müvafiq demoqrafik məlumatlar və etnik statistik göstəricilər əks olunub. Təqdimat mərasimində bildirilib ki, demoqrafik məlumatlar 2014-cü ildə Gürcüstanda aparılmış sonucu siyahıya almaya əsasən verilib.

Veb-xəritədə Gürcüstanda yaşayan etnik azlıqların yerli idarəetmə orqanlarında təmsilçiliyi, etnik icma-



lar, tədrisi milli azlıqların dilində olan məktəblər, KİV, mədəni müxtəlifliyi əks etdirən teatr və muzeylərlə də bağlı məlumat əldə etmək mümkündür.

Veb-xəritə CSEM-in saytında (http://csem.ge/interactivemap/) yerləşdirilib və istənilən internet istifadəçisi onunla tanış ola bilər.

## TBİLİSİDƏ GƏNC ALİM AYGÜL İSAYEVANIN KİTABININ TƏQDİMATI OLUB



Tbilisidə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində gənc alim, SOCAR-ın Gürcüstan nümayəndəliyinin əməkdaşı, Beynəlxalq Qafqaz Universitetinin müəllimi, iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayevanın “Müştəri loyallıq fazaları. Xidmətin bərpasından yaranan məmnunluq: Azərbaycan və Gürcüstan. Müqayisəli analiz” kitabının təqdimatı olub. Kitab ingilis dilindədir və iqtisadi inkişaf, xüsusən də xidmət sahələrində işin səmərəli təşkilindən bəhs edir.

Təqdimat mərasimində Gürcüstan parlamentinin deputatları, müxtəlif universitetlərin professor və müəllimləri, Azərbaycan səfirliyinin məsul əməkdaşları, azərbaycanlı və gürcü ziyalılar, elm adamları iştirak ediblər.

Tədbirdə kitabın iqtisadiyyat üzrə bakalavr və magistr pillələrində təhsil alan tələbələr üçün faydalı mənbə olduğu, Azərbaycan, Gürcüstan və digər ölkələrin ali təhsil məktəblərinə paylanacağı bildirilib.

## AVTOMOBİLLƏR ÜÇÜN ƏMLAK VERGİSİ ÖDƏNİLƏCƏK

Cari ildən müəyyən kateqoriyalı şəxslər avtomobillər üçün əmlak vergisi ödəməli olacaqlar.

Qeyd etmək lazımdır ki, vergi ödəmək illik gəliri 40 min laridən çox olan ailələrə aiddir.

Vergi Xidmətinin məlumatına görə, illik gəliri 40 min laridən artıq olan şəxslərin sayı 45 146 nəfərdir. Gürcüstanda 40 min laridən çox və 100 min laridən az gəliri olan şəxslərin sayı 35 418 nəfər, 100 min lari və daha çox gəliri olanların sayı isə 9 728 nəfərdir.

40 mindən 100 min lariyə qədər gəliri olan ailələr avtomobilin dəyərinin ən az 0,05%-ni və ən çox 0,2%-ni ödəməli olacaqlar. 100 min laridən çox gəliri olan ailələr isə avtomobilin dəyərinin ən az 0,8%-ni və ən çox 1%-ni ödəyəcəklər.

## “II İRAKLİ VƏ XUDU BORÇALI” ADLI KİTAB NƏŞR OLUNUB




Azərbaycanlı xalq qəhrəmanı Xudu Borçalıya həsr olunmuş “II İrakli və Xudu Borçalı” adlı kitab nəşr olunub. Kitabın müəllifi Gürcüstan Yazıçıları Milli Akademiyasının Azərbaycan bölməsinin rəhbəri Mirzə Məmmədoğlu, redaktoru isə Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin rəhbəri, şair Rafiq Hümmətdir.

Kitabda verilən tarixi povest Aspindza döyüşünün qəhrəmanı, igid və cəsur azərbaycanlı Xudu Borçalıya və Gürcüstan tarixində qəhrəmanlıqları ilə şanlı səhifələr yazmış gürcü çarı II İraklinin həyatının ayrı-ayrı məqamları, onların arasında mövcud olan münasibətlər öz əksini tapıb.

Qeyd edək ki, Xudu Borçalının igidliyinə həsr olunmuş kitab onun haqqında yazılmış ilk əsaslı kitabdır. Kitab müəllifin öz hesabına nəşr olunub.

## MƏHDUD FİZİKİ İMKANLI ŞƏXSLƏRƏ 250 ƏDƏD ƏLİL ARABASI VERİLİB



Məhdud fiziki imkanlı şəxslərə 250 ədəd əlil arabası verilib. Martın 14-də Gürcüstan Müsəlmanları İdarəsində (BGMİ) əlil arabalarının təqdimatı baş tutub. Tədbirdə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, BGMİ-nin müftiləri və şeyxi, digər şəxslər iştirak ediblər. Əlil arabalarının alınması Türkiyənin Gürcüstandakı səfirliyi, Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin və Gürcüstan Müsəlmanları İdarəsinin birgə səyləri nəticəsində mümkün olub.

Türkiyədən gətirilmiş ümumilikdə 250 əlil arabasının 200-ü standart, 40-ı uşaqlar üçün, 10-u isə elektron olmaqla xüsusi tələbatlı şəxslər üçün nəzərdə tutulub.

## GÜRÜSTANIN RAQBİ YIĞMASI RUSİYANI 29:9 HESABI İLƏ MƏĞLUB EDİB



Gürcüstanın raqbi yığması Rusiyanın milli yığmasını 29:9 hesabı ilə məğlub edib. “Borcğalolular” Rusiya raqbi yığması ilə Avropa Çempionatı çərçivəsində qarşılaşıblar. Görüş Rusiyanın Krasnodar şəhərində baş tutub. “Borcğalolular”ın turnir çərçivəsində növbəti görüşü martın 18-də Rumınya ilə “Dinamo Arenada” baş tutacaq.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.